

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 200 (21.352)

15 oktyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik




*Müasir Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Görkəmli dövlət xadimi bu gün dünyada söz sahibi olan müstəqil Azərbaycanın qurucusu, xalqımızın xilaskarı və ölkəmizin davamlı inkişafının müəllifi olmaqla bərabər, banisi olduğu dövlətçilik irsinin əbədiliyini təmin edən, ölkəmizi lider dövlətlər sırasına çıxaran və dövlət müstəqilliyini qoruyub möhkəmləndirən qüdrətli varisi də yetişdirmişdir.*

# Müstəqil və qüdrətli Azərbaycan naminə

## Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də Heydər Əliyev siyasətinin davamına səs verdi

2003-cü ildə xalqına ünvanladığı müraciətində ***“...Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var”***, – deyən ümummilli liderimiz bu planları həyata keçirmək qüdrətində olan siyasi varisi İlham Əliyev barədə demişdir: ***“İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.***

Cənab İlham Əliyevin ilk dəfə prezident seçildiyi gündən – 15 oktyabr 2003-cü ildən bu günə qədər ötən 12 il göstərdi ki, Azərbaycan dövlətçiliyini möhkəmləndirmək, respublikamızı dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxarmaq üçün müəyyən edilmiş müdrik siyasi xətt uğurla davam etdirilir. Əgər Azərbaycanın inkişaf strategiyasının hazırlanaraq həyata keçirilməsi yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə ali hakimiyyətə qayıdışından sonra mümkün olmuşdusa, bu siyasi xəttin dəyişən dünyanın tələblərinə uyğunlaşdırılması 2003-cü ilin 15 oktyabrında cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi nəticəsində mümkün olmuşdur. 2003-cü ilin 15 oktyabr seçkiləri bir daha təsdiqlədi ki, xalqımız ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiqdir. Çünki bu kurs ölkəyə və onun vətəndaşlarına xidmət yolunu özündə əks etdirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir”.***

Danılmaz faktdır ki, xalq həmişə düzgün seçim etməyə maraqlıdır. Cənab İlham Əliyev isə bu seçimin doğru seçim olduğunu öz fəaliyyəti ilə təsdiq etməklə Vətənə və xalqa ləyaqətlə xidmət etməyin real nümunəsini yaradır. Onun Prezident kimi fəaliyyətinin ötən 12 ili genişmiqyaslı uğurlarla, bütün sahələr üzrə qazanılan nailiyyətlərlə əlamətdar olmuşdur.

Ölkə Prezidentinin Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasətin kökündə “real iş görmək” prinsipi dayanır. Bütün ölkəni əhatə edən tikinti və quruculuq işlərinin aparılması, yollar və körpülərin salınması, istehsal müəssisələrinin istifadəyə verilməsi, sənaye və kənd təsərrüfatı sahələrində yüz minlərlə iş yerlərinin açılması, məktəblərin, xəstəxanaların, idman komplekslərinin tikilməsi, qitələri birləşdirən dəmir yollarının, transmilli neft və qaz kəmərlərinin çəkilməsi, elektrik, su və qaz təminatının, insanların rifahının yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi cənab İlham Əliyevin səmərəli fəaliyyətinin yalnız görünən tərəfidir. Ölkə rəhbərinin yeritdiyi siyasi kursda iqtisadi inkişaf, sadəcə, məqsəd deyil, həm də vasitədir. Dövlət müstəqilliyinin qorunması, Azərbaycanın dünyada lider ölkəyə çevrilməsi yolunda vasitə!

Azərbaycan Respublikası özünün karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarmaq üçün neft və qaz boru kəmərləri marşrutlarının şaxələndirilməsinə, alternativ ixrac istiqamətlərinə üstünlük verir. İlk dəfə bu təşəbbüslə xalqımızın ümummilli lideri Heydər Əliyev çıxış etmişdir. Xatırladaq ki, “Əsrin müqaviləsi” imzalanan zaman ulu öndər Azərbaycan neftini dünya bazarına çıxarmaq üçün şimal və qərb istiqamətləri ilə yanaşı, əsas ixrac marşrutu olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin də inşasının zəruriliyini bəyan etmişdi. Zaman bu uzaqgörən ideyanın həqiqiliyini sübut etmiş və Bakı-Tbilisi-Ceyhan layihəsi reallığa çevrilmişdir. Ulu öndərin müəyyənləşdirdiyi siyasi-iqtisadi strategiyanı Azərbaycanda uğurla davam etdirən Prezident İlham Əliyev ölkəmizin neft-qaz ehtiyatlarının dünya bazarına ixracı üçün şaxələndirilmiş boru kəməri sisteminin yaradılmasına xüsusi önəm verir. Hazırda Azərbaycan təbii qazını dörd istiqamətdə ixrac etmək imkanına malikdir. Artıq reallaşdırılan TANAP və TAP layihələri buna bariz nümunədir.

XX əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirib müstəqil dövlətə çevirmiş, 1993-2003-cü illərdə isə müstəqilliyimizi əbədi edərək dövlətçiliyimizin bünövrəsini yaratmış, ölkəmizin davamlı inkişafının əsasını qoymuşdur. Bu gün davam etdirilən yol həmin yoldur, böyük inkişafı hədəfləyən strateji məqsəd həmin məqsəddir. Ulu öndərimizin məqsədi Azərbaycanın müstəqilliyinə nail olmaq idisə, cənab İlham Əliyevin amalı əldə edilmiş müstəqilliyi qorumaq və möhkəmləndirməkdir. Bu istiqamətdə həyata keçirilən genişmiqyaslı tədbirləri xalqımız dəstəkləyir və proseslərdə fəal iştirak etməyi, tikilənləri, yaradılanları qoruyub saxlamağı özünün vətəndaşlıq borcu sayır.

Dövlət başçısı cənab İlham Əliyev demişdir: ***“Dünyada müstəqil sayılan ölkələr çoxdur. Ancaq əgər biz bir az dərinə baxsaq, görərik ki, onların heç də hər biri müstəqil siyasət aparmaq iqtidarında deyildir... O ölkələr dünyada özünə layiqli yeri tutar ki, o ölkələr öz hesabına yaşaya bilsinlər, başqa ölkələrin yardımına onların ehtiyacı olmasın – nə siyasi, nə iqtisadi cəhətdən, nə də ölkələrin ehtiyaclarının ödənilməsi baxımından. Azərbaycan bu ölkələrdəndir”.***

Burada biz müstəqillik anlayışının yeni dövrün tələblərinə uyğun şəkildə zənginləşdirildiyini görürük. Azərbaycanda ümummilli liderimizin bizə ən böyük əmanəti olan dövlət müstəqilliyi nəinki qorunub saxlanılmışdır, o daha da gücləndirilmişdir. ***“Müstəqillik yalnız dövlət atributları ilə ölçülmür, müstəqillik rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, dövlət və ölkənin rəhbərliyi öz xalqının maraqlarına tam cavab verən müstəqil siyasət aparmaq iqtidarında olsun”***, – deyən Azərbaycan Prezidenti cənab İlham Əliyevin əsas qayəsi ölkəmizin heç bir güc mərkəzindən asılı olmadan müstəqil siyasət aparması, hər bir sahədə xalqın mənafeyinin və milli maraqlarının əsas götürülməsidir.

Beynəlxalq münasibətlər sisteminin aparıcı subyektlərindən biri kimi uğurlu xarici siyasət həyata keçirən Azərbaycan Respublikası güclü dövlətlə güclü cəmiyyət modellərinin harmoniyasını təmin etməklə dünya birliyində böyük nüfuz qazanmışdır. Bu gün beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq, dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq ölkəmizin qarşısında geniş üfüqlər açır.

İstənilən halda ölkənin qazandığı nailiyyətlər onun iqtisadi inkişafında özünü daha qabarıq şəkildə büruzə verir. Arxada qalan 12 ilin iqtisadi statistikası göstərir ki, bu dövrdə ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi inkişaf xətti dönməz xarakter almış, eyni zamanda bu xətt artan iqtisadi imkanlara uyğun olaraq inkişaf etdirilmişdir. Bununla da, Azərbaycan dövləti dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına nail olmuşdur. Dünya ölkələrini bürüyən iqtisadi və maliyyə böhranı bunu bir daha sübut etdi. Böhrana baxmayaraq, Azərbaycanın uğurlu inkişafı davam edir, bütün sosial məsələlər öz həllini tapır, valyuta ehtiyatlarımız daha da çoxalır.

Ölkədə bütün sahələrin dinamik inkişafının davamlı xarakter daşıması üçün, ilk növbədə, təhsilli, savadlı, dünyagörüşlü kadrların yetişdirilməsi əsas şərtlərdəndir. Təhsilin inkişafı üçün dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artırılması, yeni məktəb binalarının tikilməsi, təhsil ocaqlarının pulsuz dərsliklərlə təmin edilməsi ölkə rəhbərinin bu vacib sahəyə diqqət və qayğısının bariz ifadəsidir. Son 12 ildə ölkəmizdə yüzlərlə məktəb binalarının tikilməsi təhsil sistemində ən uğurlu islahat kimi tarixə düşmüşdür. Məktəb binaları ən müasir avadanlıqlarla, informasiya texnologiyaları ilə zənginləşdirilir, şagirdlər pulsuz dərsliklərlə təmin olunur, müəllim əməyi yüksək qiymətləndirilir, onların əməkhaqları artırılır.

Ən qiymətli kapital olan insanların sağlamlığının qorunmasına da dövlət başçısı xüsusi önəm verir. İndi nəinki şəhərlərdə, rayon mərkəzlərində, ən ucqar dağ kəndlərində belə, müasir tələblərə cavab verən səhiyyə müəssisələri istifadəyə verilir.

Bu gün dövlət başçısı ordu quruculuğuna xüsusi diqqət yetirir. Azərbaycan Ordusunun qüdrəti ilbəil artır, ölkəmizin müdafiə potensialı gücləndirilir. Torpaqlarımızı etibarlı qoruyan, düşmənə hər an layiqli cavab vermək gücündə olan milli ordumuz Ali Baş Komandanın rəhbərliyi altında xalqın güvənc yerinə çevrilmişdir.

Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə maaşlar və pensiyalar orta hesabla 6 dəfədən çox artırılmışdır. Dünyanın ən inkişaf etmiş ölkələrində belə, işsizlik tüğyan edərkən, Azərbaycanda 1 milyondan artıq yeni iş yeri açılmışdır. Büdcə xərcləri, hərbi xərclər, valyuta ehtiyatları dəfələrlə artmışdır. Bir sözlə, ölkəmizin uğurlu iqtisadi inkişafı üçün bütün lazımi tədbirlər görülmüşdür. Oktyabrın 12-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlət başçısı demişdir: ***“Azərbaycanda sabitlik təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib – Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək”.***

Azərbaycanın sürətli inkişafı, onun tam təhlükəsiz regiona çevrilməsi respublikamızı beynəlxalq tədbirlərin, idman yarışlarının keçirildiyi ölkəyə çevirmişdir. Hər il keçirilən humanitar forumlara, beynəlxalq sərgilərə artan maraq, bu il Azərbaycanda birinci Avropa Oyunlarının keçirilməsi ölkəmizin, ən əsası isə dövlət başçısı cənab İlham Əliyevin beynəlxalq nüfuzundan xəbər verir.

Ölkəmizdə regionların tarazlı inkişafı da diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, o sahə üzrə hərtərəfli əsaslandırılmış inkişaf proqramı olmasın. Qəbul olunmuş proqramların mühüm elementlərindən biri də regionların sosial-iqtisadi inkişafı ilə bağlıdır. Hələ hakimiyyətinin ilk illərindən bölgələrin inkişafı olmadan Azərbaycanın inkişafının mümkün olmadığını bildirən dövlətimizin rəhbəri tövsiyə etmişdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etməli, hər bir rayon mərkəzi müasir standartlara cavab verməli, genişmiqyaslı abadlıq işləri aparılmalı, yollar, körpülər salınmalı, sosial obyektlər tikilməli, insanların gündəlik həyatında müsbət dəyişikliklər baş verməlidir”.***

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət Naxçıvan Muxtar Respublikasının timsalında əyani şəkildə özünü göstərməkdədir. Bu gün Naxçıvan öz inkişafının yeni mərhələsini yaşayır. Blokadanın çətinliklərinə baxmayaraq, muxtar respublikada böyük quruculuq proqramları gerçəkləşdirilir. Bu gün Naxçıvanda hansı sahəyə baxsaq, orada geniş islahatların aparıldığının şahidi olarıq. Naxçıvanın inkişafa qovuşması düzgün idarəetmənin nəticəsi, Vətən sevgisi, yurd sahibliyinin misilsiz nümunəsidir. Muxtar respublikada bütün sahələr üzrə analoqu olmayan uğurlar ona görə qazanılır ki, burada ulu öndərimiz Heydər Əliyevin yolu sədaqətlə davam etdirilir.

Dövlət başçısı muxtar respublikada aparılan quruculuq işlərini yüksək qiymətləndirmiş və bunun səbəblərini belə açıqlamışdır: ***“Burada hər bir sahədə gözəl inkişaf vardır... Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar. Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Mən çox şadam ki, naxçıvanlıların Vətənə bağlılığı həmişə olduğu kimi, çox yüksək səviyyədədir”.***

*Azərbaycanın ötən 12 illik inkişaf və tərəqqi yolunu qısaca olaraq belə xarakterizə etmək mümkündür: Ulu öndər Heydər Əliyevin siyasi kursu etibarlı əllərdədir və ölkə başçısı cənab İlham Əliyev bu kursu uğurla davam etdirir, ölkəmizi inam və qətiyyətlə gələcəyə aparır.*

**“Şərq qapısı”**

# Müasirliyə qovuşan daha bir yaşayış məntəqəsi: Gal

## *Bu kənddə də kompleks quruculuq işləri aparılıb*

**Yurdumuza qızılı payızın yenicə qədəm qoyduğu günlərin birində yolumuzu Culfa rayonunun Gal kəndinə saldıq. Yaşıllıqlar qoynunda yerləşə də, payızın nəfəsi duyulan bu yaşayış məntəqəsi Culfa rayonundan 35 kilometrlik bir məsafədə yerləşir. Kəndə gedən yol Dizə kəndindən keçir. Naxçıvan-Ordubad magistralının Culfa rayonunun Yaycı kəndi ərazisindən ayrılan bu yolda yenidənqurma işləri aparıldığının şahidi olduq. Yol yatağı genişləndirilir, hamarlama işləri görülür. Yol inşaatçıları gördükləri işin keyfiyyətinə ciddi diqqət yetirirlər. Dağlar qoynunda yerləşən Şurud kəndinə qədər bu iş sürətlə davam etdirilir. Gal Şurud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin tərkibində olan bir yaşayış məntəqəsidir.**



Məlumat üçün bildirək ki, bu kənddə 47 təsərrüfatda 135 sakin yaşayır. Kəndin girəcəyində gözəl bir mənzərə ilə rastlaşırıq. Sıra ilə düzülmüş kənd tam orta məktəbinin binası, kənd və xidmət mərkəzləri bu yaşayış məntəqəsinə xüsusi yaraşıq verməklə Galı muxtar respublikanın müasir kəndlərindən birinə çevirib. Həmin obyektlər sentyabr ayının 30-da istifadəyə verilib. Gal kəndinin sakinləri o günün sevincini yaşayırlar. Kənd sakini Növhəl Məmmədov deyir ki, elə ki payız gəldi, yağışlar başladı, demək olar ki, mövcud yollardan istifadə etmək, rayon mərkəzinə, Naxçıvan şəhərinə getmək, problemlərimizi həll etmək, ev üçün nə isə almaq müşkül məsələyə dönürdü. İndi yollarımızda yenidənqurma işlərinin aparıldığını görəndə xeyli sevinirik. Kənddaxili yol abadlaşdırılıb, Dizə kəndindən başlayaraq 14 kilometr məsafəyə çınqıl örtük verilib, selötürücü və su keçidləri tikilib, kənd daxilində 300 metrlik beton kanal çəkilib. Elektrik, rabitə, su və təbii qaz təchizatı da yaxşılaşdırılıb, yeni elektrik, rabitə, fiber-optik kabel xətti çəkilib, mövcud artezian quyusunda və "Anabat" kəhrizində təmir-bərpa işləri aparılıb.

Digər bir kənd sakini Novruzəli Quliyev söhbətə qoşulur:

– Gördüyünüz bu yeniliklər bir neçə ay çəkilən zəhmətin bəhrəsidir. Deməli, insanların rahat yaşamasını təmin etmək üçün qayğı göstərilərsə, yaşanan çətinlikləri aradan qaldırmaq mümkün olar. Gal Şurud kənd inzibati ərazi dairəsinin tərkibindədir. Yanvar ayında Şurudda kənd mərkəzi istifadəyə verilib, sentyabr ayında isə Galda. Bu, o deməkdir ki, bundan sonra heç bir Gal sakini hansısa bir sənəd almaq, kitabxanadan istifadə etmək və ya digər məsələni həll etmək üçün vaxt itirib Şuruda üz tutmayacaq.

Yolumuzu kənd mərkəzindən salırıq. İki mərtəbədən ibarət olan bu yeni binada bələdiyyə və inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün iş otaqları ayrılıb. Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, klub və iclas zalı ən müasir tələblər səviyyəsindədir. Rabitə evində 384 yerlik yeni ATS quraşdırılıb. Poçt bölməsinin fəaliyyəti də diqqətçəkicidir.

Neçə illərdir ki, muxtar respublikada həyata keçirilən sosial tədbirlərin əsasını təşkil edən sahələrdən biri əhalinin sağlamlığının qorunmasıdır. Bu məqsədlə hər il ayrı-ayrı yaşayış məntəqələrində səhiyyə ocaqları tikilərək istifadəyə verilir. Bu da insanlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsinə şərait yaradır. Gal kəndinə də bu qayğıdan pay düşüb. Yaşayış məntəqəsində müasir avadanlıqlarla təchiz edilən feldşer-mama məntəqəsinin istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Kənd sakini Sərvinaz Əliyevanı daha çox sevindirən də bu məntəqənin istifadəyə verilməsidir:

– Sağlamlıq şirin nemətdir. Odur ki, hər bir insan sağlam yaşamaq istəyir. Bu məntəqə də bizim sağlamlığımızı qorumaq üçün tikilib. Dövlətimizə minnətdarıq ki, kənd sakinlərinə belə qayğı göstərir.

Həmin gün kənddə istifadəyə verilən kənd tam orta məktəbinin binası 3 mərtəbəli olmaqla, 96 şagird yerlikdir.

Məktəb binasında tədris, idarəetmə, sinifdənxaric məşğələlər, idman və şagirdlərin asudə vaxtlarının səmərəli təşkili üçün nümunəvi şərait yaradılıb. Binada 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana və idman zalı istifadəyə verilib, həyətdə açıq idman qurğuları quraşdırılıb. Kompüter sinfində şagirdlərin informasiya-kommunikasiya texnologiyaları ilə bağlı biliklərə yiyələnmələri üçün lazımi imkanlar yaradılıb, kompüterlər internetə qoşulub. Kimya-biologiya və fizika laboratoriyaları əyani tədris vasitələri və elektron təcrübə avadanlıqları ilə təchiz olunub.

Təhsil ocağında məktəblilərin fiziki hazırlığı da diqqət mərkəzində saxlanılıb. İdman zalında mini-futbol, basketbol və digər idman növləri ilə məşğul olmaq üçün şərait yaradılıb. Məktəbin müəllimləri ilə söhbət zamanı muxtar respublikada ucqar dağ və sərhəd kəndlərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən geniş danışıldı. Şamama Məmmədova bildirdi ki, 2015-2016-cı tədris ilinədək məktəb ümumi orta təhsil ocağı kimi fəaliyyət göstərib. Cari ildən təhsil ocağının tam orta məktəbə çevrilməsi, yeni məktəb binasının istifadəmizə verilməsi mövcud problemlərimizi aradan qaldırıb. Daha şagirdlərimiz IX sinfi bitirdikdən sonra başqa kəndlərdəki məktəblərə üz tutmayacaq, orta təhsillərini burada başa vuracaqlar.

Elmar Quliyev Gal məktəbi üçün yeni binanın istifadəyə verilməsini onların məsuliyyət hissini daha da artırdığını bildirdi və belə qayğı üçün pedaqoji kollektiv və kənd camaatı adından minnətdarlığını ifadə etdi.

Məktəbin direktoru Təranə Nəsirova bildirdi ki, təhsil müəssisəsinin pedaqoji kollektivi öz işini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun verdiyi tövsiyələr əsasında qurub. Açılış mərasimində Ali Məclisin Sədri deyib: ***"Ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Gələcəyin təminatçıları olan gənc nəsil isə məktəblərdə yetişir. Ona görə də hər bir təhsil ocağında, ailədə gənclərin hərtərəfli hazırlanması diqqət mərkəzində saxlanılmalı, bu məqsədlə ardıcıl tədbirlər görülməlidir... Təhsil sahəsində yaradılan şərait müəllim və şagirdlərin üzərinə mühüm vəzifələr qoyur. Şagirdlər yaxşı təhsil almalı, gələcəkdə xalqımız və dövlətimiz üçün yararlı vətəndaş olmalıdırlar. Müəllimlər isə gənclərə yaxşı təhsil verməklə yanaşı, həm də onları vətənpərvər böyütməlidirlər. Məktəbdə dərs prosesi müasir tədrisin tələbləri səviyyəsində qurulmalı, müəllim-şagird münasibətlərində fərdi yanaşmaya üstünlük verilməli, hər bir gəncin marağına və bacarığına uyğun peşə seçiminə köməklik göstərilməlidir. Gal kənd tam orta məktəbində bu işlərin həyata keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Qarşıda duran əsas vəzifə bu şəraitdən düzgün istifadə etməkdən ibarətdir".***

Məqsəd aydındır. Ona nail olmaq üçün fəaliyyət istiqaməti dəqiqliyi ilə müəyyənləşdirilib, yüksək səviyyədə şərait təmin olunub, kadr potensialı səfərbər edilib. Bütün bunlar isə kollektivə göstərilən etimadı doğrultmağa böyük əminlik hissləri yaradır.

Kənd yaşayış məntəqələrində yaşayan sakinlərin zəruri məişət tələbatlarının yerində ödənilməsi məqsədilə muxtar respublikanın kəndlərində istifadəyə verilən xidmət mərkəzlərinin sayı ilbəil artmaqdadır. Gal kəndi də belə yaşayış məntəqələri sırasına daxil olub.

Əvvəllər kənd sakinləri gündəlik ərzaq və təsərrüfat mallarına olan tələbatlarını ödəmək üçün rayon mərkəzinə və digər kəndlərə üz tuturdular. Bu da vaxt itkisinə və əlavə xərcə səbəb olurdu. Lakin yeni xidmət mərkəzinin istifadəyə verilməsi ilə bu problem öz həllini tapıb. Mərkəzdə ərzaq-sənaye malları mağazası və bərbərxana fəaliyyətə başlayıb.

*Gal kəndinin sakinləri hələ də yeni obyektlərin açılış mərasiminin sevincini yaşayırlar. Son 20 ildə belə sevinc muxtar respublikanın çox kəndlərində yaşanıb. Və bundan sonra da yaşanacaq. Bu, muxtar respublikada insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına verilən böyük önəm, doğma diyarın sabahına cavabdehlik hissidir.*

**✍ Muxtar MƏMMƏDOV**

---

***“Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2015-ci il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

# Oğullar əsgər gedir



Oktyabrın 14-də keçirilən mərasimi idarənin əməkdaşı Mirzə Rəhimov açıq elan edib.

Sonra Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Naxçıvan şəhər təşkilatının sədr müavini Sultan İsmayılovun, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatı Naxçıvan şəhər şöbəsinin sədri Zahid Cəfərovun çıxışları olub.

Bildirilib ki, Azərbaycan dövləti inkişaf etdikcə, qüdrətləndikcə ordumuz da güclənir. Güclü ordu isə düşməni hər an yerində oturtmağa qadir bir komanda deməkdir. Bu gün bizim ordumuzun yüksək əhval-ruhiyyəli əsgərlərinin, güclü maddi-texniki bazasının olması düşmənə gözdağıdır.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov çağırışçılara öz xidmətlərində uğurlar diləyib.

Valideyn Həsən Tarverdiyev ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdıraraq deyib: “Mən böyük qürur hissi keçirirəm ki, övladım Azərbaycan Ordusunda xidmətə yola düşür”.

Çağırışçılar adından çıxış edən Əli Eyvazov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını canbaşla yerinə yetirəcəklərinə söz verib.

Sonda Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyev çıxış edərək muxtar respublikada hərbi hissələrə göstərilən dövlət qayğısından danışıb.

Bildirilib ki, bu gün Azərbaycan torpaqlarının bir qismi işğal altındadır. Azərbaycan əsgərinin üzərinə düşən ən böyük vəzifə torpaqlarımızın bütövlüyü uğrunda şərəflə xidmət etməkdir.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Babək rayonunda da gənclər hərbi xidmətə yola salınıblar.

---

# Azərbaycanda ən aşağı faiz dərəcələri ilə kreditləşmə Naxçıvan Muxtar Respublikasında müşahidə olunub

Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatlarına əsasən, 2015-ci il ərzində verilmiş kredit resurslarına tətbiq olunan ən aşağı faiz dərəcələrini ölkənin iqtisadi regionları arasında ənənəyə sadiq qalaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar təklif edib. Belə ki, 1 sentyabr tarixinə Naxçıvan Muxtar Respublikasında verilmiş kreditlər üzrə orta illik faiz dərəcəsi 13,8 faiz olub.

Kreditlərin orta illik faiz dərəcəsi Lənkəran iqtisadi rayonunda 24 faiz, Aran və Dağlıq Şirvan iqtisadi rayonlarında 22,8 faiz, Şəki-Zaqatalada 21,8 faiz, Quba-Xaçmazda 20,5 faiz, Yuxarı Qarabağda 19,6 faiz, Gəncə-Qazaxda 19,3 faiz, Abşeronda 19 faiz, Kəlbəcər-Laçın iqtisadi rayonunda isə 17,1 faiz səviyyəsində müşahidə olunub.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən qəzetimizə daxil olan məlumatda bildirilir ki, muxtar respublikada kreditlərin ən aşağı faiz dərəcələri ilə təklif edilməsi eyni zamanda verilmiş kreditlərin həcmində də özünü büruzə verib. 2015-ci ilin yanvar-sentyabr ayları ərzində muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi məqsədilə 59 milyon 840 min manat həcmində kredit resursu verilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 18 milyon 204 min manat çoxdur.

Mərkəzi Bankın məlumatına əsasən, 1 oktyabr 2015-ci il tarixə Azərbaycan Respublikası üzrə vaxtı keçmiş kredit borcları 1 milyard 333 milyon 600 min manatdır. Muxtar respublikanın vaxtı keçmiş kredit borclarının ölkə üzrə vaxtı keçmiş kredit borcunda payı isə 0,9 faiz təşkil edir.

---

# Daha bir məktəb binasının yenidən qurulması başa çatdırılmaqdadır

Muxtar respublikamızda həyata keçirilən quruculuq işlərinin bir qolunu təşkil edən məktəb binalarının tikilməsi və yenidən qurulması cari ildə də davam etdirilir. Belə tədbirlərdən Babək rayonunun Nehrəm kəndinə də pay düşüb. Məlumat üçün bildirək ki, son illərdə bu yaşayış məntəqəsində aparılan kompleks quruculuq tədbirləri nəticəsində kənd öz simasını tamamilə dəyişib, müasirliyə qovuşub.

Köklü təhsil ənənələri olan kənddəki 2 nömrəli tam orta məktəbin binasında hazırda əsaslı təmir və yenidənqurma işləri aparılır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan məktəb binasında bu tədbirlərə 2014-cü ilin aprel ayından başlanılıb.

Yenidənqurma tədbirini “Dizayn Holdinq” Şirkətlər İttifaqının inşaatçıları həyata keçirib. İnşaatçılar yaradılan şəraitdən səmərəli istifadə etməyə, öhdələrinə götürdükləri obyekti vaxtında təhvil verməyə səy göstəriblər.

Qeyd edək ki, məktəbin köhnə binasında bir korpus saxlanılmaqla əlavə üç korpus tikilib. Yeni məktəb binasında 5 elektron lövhəli sinif, 3 kompüter, 1 şahmat sinfi, müxtəlif fənn kabinələri, laboratoriyalar, yeməkxana, kitabxana, idman zalı və sair müəllim və şagirdlərin istifadəsinə veriləcək.

Hazırda obyektdə son tamamlama işləri görülür, təhsil ocağının həyətyanı sahəsində abadlıq tədbirləri həyata keçirilir.

**Xəbərlər şöbəsi**

## TEMPUS proqramı çərçivəsində Naxçıvan Dövlət Universitetində üçgünlük təlim davam edir

*Naxçıvan Dövlət Universitetində (NDU) Avropa İttifaqının TEMPUS proqramı çərçivəsində "Davamlı turizmin idarə olunması sahəsində beynəlxalq bakalavr və magistr proqramları üçün yeni modulların hazırlanması" adlı üçgünlük təlim keçirilir.*

Təlimin birinci günü universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov sözügedən layihənin rəhbərləri ilə görüşüb, təlimin işinə uğurlar arzulayıb.

Rektor universitetin keçdiyi inkişaf yolu, həmçinin beynəlxalq əlaqələri haqqında qonaqlara ətraflı məlumat verib, Avropa təhsil prosesini özündə əks etdirən TEMPUS proqramının mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Bildirilib ki, Naxçıvan Dövlət Universitetinin TEMPUS proqramı ilə qarşılıqlı əməkdaşlıq şəraitində 7 layihənin iştirakçısı olması, Türkiyə universitetləri ilə qarşılıqlı müəllim və tələbə mübadiləsini nəzərdə tutan "Mövlana" Mübadilə Proqramı çərçivəsində həyata keçirilən tədbirlər, ERASMUS MUNDUS, ERASMUS-HUMERİA proqramları təhsilin və tədrisin müasir tələblər səviyyəsində qurulmasına xidmət edir. Ali təhsil ocağının bütün binaları arasında fiber-optik kabellə şəbəkə qurulduğunu, 108 hektarlıq kampusda simsiz internet şəbəkəsi yaradıldığını da nəzərə çatdıran rektor virtual əməkdaşlığın genişləndirilməsi, beynəlxalq videokonfransların təşkili üçün universitetdə lazımi şəraitin olduğunu bildirib.

Qonaqlara universitetin İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzində quraşdırılan server avadanlıqları, elektron mühafizə və müşahidə sistemləri, imtahanların elektron qaydada keçirilməsi haqqında da məlumat verilib.

Layihənin Naxçıvan Dövlət Universiteti üzrə koordinatoru, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov, layihənin meneceri, Almaniyanın Yade Tətbiqi Elmlər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Gila Altmann və layihənin rəhbər komitəsinin üzvü, birinci işçi qrupun rəhbəri, Almaniyanın Vorms Tətbiqi Elmlər Universitetinin vitse-prezidenti, professor Knut Şerbaq çıxışlarında sözügedən layihə bitdikdən sonra universitetlərarası əməkdaşlığın davam etdirilməsi ilə bağlı fikirlər səsləndiriblər. Onlar layihə çərçivəsində görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat veriblər. Qeyd olunub ki, layihənin müddəti daha bir il uzadılıb.

Görüşdən sonra təlim öz işinə başlayıb.

Təlimdə layihənin Azərbaycan üzrə tərəfdaş təşkilatları sırasında olan Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti və Naxçıvan Dövlət Universitetinin nümayəndələri, müəllim və magistrlər iştirak edirlər.

Qeyd edək ki, təlimdə "destinasiya menecmenti", "davamlı turizm", "ekoturizm" və digər modullar üzrə seminar-məşğələlər keçirilir, müzakirələr aparılır.

**Mina QASIMOVA**

## Müharibə veteranının 95 yaşı qeyd olunub

*Muxtar respublikada 1941-1945-ci illər müharibəsi iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır.*

"1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq müharibə veteranlarının yubileylərinin keçirilməsi bu diqqət və qayğının daha bir ifadəsidir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Şahbuz rayonunun Güney Qışlaq kənd sakini, müharibə veteranı Hüseyn Hümbətovun 95 yaşının tamam olması münasibətilə oktyabrın 14-də onunla görüş keçirilib.

Tədbirdə iştirak edən Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 95 yaşı münasibətilə təbrik ediblər.

Vurğulanıb ki, dövlətimiz müharibə veteranlarına yüksək qayğı göstərir. Onlar minik avtomobilləri, həmçinin texniki bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunur, sanatoriya və pansionatlara müalicəyə göndərilir, hər ay onlara Prezident təqaüdü ödənilir, habelə onların yaşayış yerlərində abadlıq işləri aparılır. Bütün bunlar müharibə veteranlarının sosial rifahının yüksəlməsinə xidmət edir.

Hüseyn Hümbətov ona göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

## Fiziki imkanları məhdud insanlar tərəfindən toxunan isti geyimlər hərbi hissəyə təhvil verilib



Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi də tapşırılmışdı.

Müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı görülən tədbirlərin davamı olaraq oktyabrın 13-də "N" hərbi hissəyə yun corablar və şərflər təhvil verilmişdir.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev çıxış edərək bildirmişdir ki, bu gün məhdud fiziki imkanlı 27 şəxs tərəfindən toxunan 1221 cüt yun corab və 114 ədəd şərf "N" hərbi hissəyə təhvil verilir.

Bu tədbir həmin kateqoriyadan olan şəxslərin məşğulluğunu təmin etməklə onların maddi təminatlarının yaxşılaşmasına xidmət edir. İlin sonunadək yun corab və şərflərin toxunması işi davam etdiriləcək.

"N" hərbi hissənin zabiti Elnur Sultanov komandanlıq adından minnətdarlığını bildirmişdir.

Sonda yun corablar və şərflər əsgərlərə təhvil verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## "Turist marşrutuna tələblər və marşrutun hazırlanma qaydası" mövzusunda tədbir

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Turist marşrutuna tələblər və marşrutun hazırlanma qaydası" mövzusunda muxtar respublikamızın ali məktəblərində turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə tədbir keçirmişdir.*



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova turizmin əhəmiyyətindən danışmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı vardır. 250-dən çox mineral və müalicə əhəmiyyətli su mənbələrinin mövcudluğu, zəngin mətbəxi, qədim tarixi və mədəniyyəti Naxçıvanda turizmin inkişafı üçün geniş perspektivlər açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə son illər qədim diyarın mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizm sahəsinin inkişafına da təsir etmiş, muxtar respublikaya gələn turistlərin sayı xeyli artmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Turizm şöbəsinin müdiri Gülbuta Babayeva "Naxçıvan Muxtar Respublikasının turizm imkanları və turizm sahəsində dövlət standartları", nazirliyin daxili turizmin inkişafı üzrə baş məsləhətçisi Əkbər Novruzov "Turist marşrutuna tələblər və marşrutun hazırlanma qaydası" mövzusunda çıxış etmişlər.

Bildirilmişdir ki, turist marşrutları hazırlanmazdan əvvəl bir çox faktor nəzərə alınmalıdır. Turistlərin rahatlığı və təhlükəsizliyi diqqətdə saxlanılmalıdır. Destinasiya nöqtəsi elə həssaslıqla seçilməlidir ki, turistlər bura çatanda bu marşrutu seçməkdə yanıldıqlarını düşünməsinlər və gəldikləri ünvandan xoş təəssüratla ayrılsınlar.

Sonra tələbələrin sualları cavablandırılmış, "Nuh yurdu Naxçıvan" filminə baxış olmuşdur.

Tədbirə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurmuşdur.

**✍ Nərgiz İSMAYILOVA**

## Milli qəhrəmanlarımızı tanıyaq və tanıdaq



***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatı və Naxçıvan Muxtar Respublikası Gənc Vətənpərvərlər İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyində Dövlət Müstəqilliyi Günü ilə əlaqədar "Milli qəhrəmanlarımızı tanıyaq və tanıdaq" mövzusunda tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Xatirə Muzeyinin baş fond müdiri Aynur Məhərrəmova açaraq muzeyin yaranma tarixi haqqında məlumat verib. O bildirib ki, muzey Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsini əbədiləşdirmək məqsədilə 2000-ci ildə yaradılıb. Muzeydə soyqırımı faktlarını əks etdirən sənədlər, şəhidlərin fotoşəkilləri, ermənilərə qarşı döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri, şəxsi əşyaları və onlara aid digər materiallardan ibarət 5000-ə yaxın eksponat nümayiş etdirilir.

Sonra Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov çıxış edərək tədbirin keçirilməsi mahiyyətindən danışıb və gənclərə Naxçıvanda gedən döyüşlərdə həlak olmuş milli qəhrəmanlar haqqında ətraflı məlumat verib, təşkilatın milli qəhrəmanların tanıdılması istiqamətində gördüyü işlərdən bəhs edib.

Nazirliyin Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev isə çıxışında Gənclər və İdman Nazirliyinin gənclərin vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə keçirdiyi tədbirlərin gənclərə vətənpərvərlik hislərinin aşılanmasında önəmli rol oynadığını qeyd edib, belə tədbirlərin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Sonda tədbir iştirakçıları muzeydə olan eksponatlarla tanış olublar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2 növ yeni elektron xidmət fəaliyyətə başlayıb

*Ölkəmizdə davamlı və dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi, dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilib.*

Dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərdən istifadə imkanının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi, vətəndaşların "elektron hökumət" üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi qarşıya qoyulan əsas vəzifələrdəndir. Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin kütləviləşməsi, beynəlxalq təcrübəyə əsaslanan elektron hökumətin formalaşması və inkişafı sahəsində mühüm tədbirlər reallaşdırılıb, dövlətin ciddi dəstək və qayğısı nəticəsində əhəmiyyətli uğurlar qazanılıb. Müasir informasiya texnologiyalarından istifadə etməklə interaktiv və informativ elektron xidmətlər vasitəsilə əhalini maraqlandıran, sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirilməsi və əhalinin elektron xidmətlərə çıxış imkanlarının daha da genişləndirilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunub, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılıb, əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılıb. İnformasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri avtomatlaşdırılıb. Fond tərəfindən təqdim olunmuş 20 elektron xidmətdən istifadəyə verilmiş 10 elektron xidmətin sayı 2015-ci ilin sentyabr ayından etibarən 13-ə çatdırılıb, oktyabr ayında isə daha iki yeni xidmət sığortaedənlərin istifadəsinə verilib.

"Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin onlayn uçota alınması" və "Ailə-kəndli təsərrüfatının onlayn uçota alınması" xidmətləri müvafiq olaraq, ailə-kəndli təsərrüfatlarının və mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxslərin sığortaedən kimi uçota alınaraq onlara "Sığortaedənin uçot nömrəsi"nin verilməsini nəzərdə tutur. Bu xidmətlərin istifadəyə verilməsi sığortaedənlərin uçota alınma prosesinə sərf olunan vaxtın minimuma endirilməsi ilə yanaşı, bu prosesin daha da sadələşdirilməsi və təkmilləşdirilməsi məqsədini daşıyır.

Bu xidmətlər interaktiv olmaqla, xidmətlərdən istifadə etmək də ödənişsizdir. "Ailə-kəndli təsərrüfatının onlayn uçota alınması" və "Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin onlayn uçota alınması" elektron xidmətləri vaxt itkisinin aradan qalxmasına, eyni zamanda şəffaflığın təmin olunmasına imkan verəcək.

*Naxçıvan Muxtar Respublikası Elektron Hökumət Portalına **(www.e-hokumet.nmr.az)** və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun **(www.dsmf.nakhchivan.az)** internet səhifəsinə daxil olmaqla, qısa müddət ərzində qeydiyyatdan keçərək bu elektron xidmətdən istifadə etmək olar.*

**İsmayıl HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri***

## Növbəti maarifləndirici tədbir Şərur rayonunun Siyaqut kəndində keçirilmişdir

*Rayon prokurorluğunun təşkilatçılığı ilə keçirilən tədbirdə rayon prokuroru, I dərəcəli hüquqşünas Tural İbrahimov “Vətəndaşların seçki hüquqları və bu hüquqların pozulmasına görə məsuliyyət” mövzusunda məruzə etmişdir.*

Bildirilmişdir ki, vətəndaşların seçki hüquqlarının qanunvericilik bazasının əsası Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir. Konstitusiyada göstərilir ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Vətəndaşlar ölkənin idarə olunmasında, ilk növbədə, seçkilər vasitəsilə iştirak edirlər. Seçkilər günü 18 yaşı tamam olan və ya yaşı 18-dən çox olan fəaliyyət qabiliyyətli vətəndaşların hamısı seçki hüququna malikdir. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 3-cü maddəsinə əsasən, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək hüququ vardır. Vətəndaşlar seçkilərdə bərabər əsaslarla iştirak edirlər. Səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır. Vətəndaşlar seçkilərdə namizədin lehinə və ya əleyhinə şəxsən səs verirlər. Başqa şəxslərin yerinə səs vermək qadağandır. Başqalarının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunurlar.

Vurğulanmışdır ki, vətəndaşların seçki hüquqlarının pozulması mülki, inzibati və cinayət məsuliyyəti yaradır. Hər bir vətəndaşın pozulmuş hüquqlarının müdafiəsi üçün respublikamızda mükəmməl qanunvericilik bazası vardır. Vətəndaşların seçkidə iştirak hüquqlarının həyata keçirilməsinə mane olma, vətəndaşı namizədin lehinə imza atmağa məcbur etmə və ya onun səs verməsinə mane olma, seçki komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə, başqa şəxslərin yerinə səs verilməsi, bir şəxs tərəfindən seçki qutusuna birdən artıq seçki bülleteninin salınması Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Vətəndaşların pozulmuş hüquqlarının məhkəmə müdafiəsi üçün də mükəmməl qanunvericilik bazası mövcuddur.

Tədbirdə rayon prokurorunun böyük müstəntiqi vəzifəsini icra edən III dərəcəli hüquqşünas Arif Quliyevin “Təbii qazın, istilik və elektrik enerjisinin talanması cinayətdir” mövzusunda məruzəsi dinlənilmişdir.

Arif Quliyev təbii qazın, elektrik və istilik enerjisinin talanması, təbii qazdan, istilik və elektrik enerjisindən qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə sakinlərə ətraflı məlumat vermişdir.

Məruzəçilər tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırmışlar.

**Elman MƏMMƏDOV**

## Ailə büdcəmizə nəzarət edək

***Son zamanlar ailə büdcəsinin idarə olunması, bunun üçün maliyyə savadlılığının artırılmasının vacibliyi haqqında çox danışılır. Müasir cəmiyyətdə, xüsusən bazar iqtisadiyyatı şəraitində yaşadığımız bir dövrdə bu nə dərəcədə aktualdır? Yaxud görəsən, orta gəlirli bir ailə bütün zəruri problemlərini həll edərək xoşbəxt yaşaya bildiyi halda, kifayət qədər çox gəliri olub, amma borc batağında hər gün sıxıntı çəkən ailələrin düşdüyü vəziyyətin səbəbləri nədir? Və ya işdə məsuliyyətli olsa da, ancaq ev xərcləri üzərində nəzarətini itirərək istehlak üçün zəruri oldu-olmadı, hər şey əldə etmək üçün kredit yükü altına girən bir çox insanlar ailə büdcəsinin düzgün idarə olunması üçün nələri bilməlidir? Bu və digər maraqdoğuran sualları cavablandırmaq üçün Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Elçin Əliyevə müraciət etdik.***

***– Elçin müəllim, ailə büdcəsi nədir və onu planlaşdırmağın nə əhəmiyyəti vardır?***

– Ailə büdcəsi hər bir ailənin gəlir və xərclərini əhatə edir və bunun əsasında ailələr öz yaşayış standartlarını müəyyənləşdirirlər. Hər bir ailənin bir gəlir mənbəyi vardır. Ailə büdcəsi hazırlanarkən də onun aylıq və ya illik gəliri, bunun da əsasında qida, geyim, təhsil, tibbi, nəqliyyat, istirahət və sair kimi ailə xərcləri əsas götürülür. Dövlət büdcəsi kimi, ailə büdcəsi də həyati əhəmiyyətlidir. Onun necə idarə edilməsini büdcəyə baxmaqla müəyyən etmək olar. Misal üçün, bəzi ailələr vardır ki, onlarda faiz miqdarı ilə götürdükdə zəruri xərclərlə müqayisədə göstəriş xatirli bahalı avtomobil, geyim, mobil telefon almağa yönəlmiş xərclər çoxluq təşkil edir və həmin ailələrdə gələcəyə əsl investisiya məqsədi daşıyan uşaqların təhsili, habelə sağlamlıq, fəal istirahət, turizm xərcləri, bir növ, unudulur. Bu da gələcəkdə həmin ailələrdə sağlam cəmiyyət dəyərlərinin daha da möhkəmlənməsi əvəzinə, sadəcə, lüks və ya kommersiya məzmunlu müəyyən ehtiyacların ödənilməsinə şərait yaradır. Bu mənada, ailə büdcəsini planlaşdırarkən gələcəkdə müəyyən məqsədlərə çatmaq üçün gəlirləri artırmaqla bərabər, ifrat xərclərə də qənaət etmək məqsədəuyğundur.

***– Ailə büdcəsinin düzgün tərtibi ailələrə nə qazandırır?***

– İlk olaraq onu qeyd edim ki, düzgün, yəni real ehtiyaclara əsaslanmış planlaşdırma hər bir ailənin malik olduğu müxtəlif gəlir mənbələrini qiymətləndirməyə və ondan səmərəli istifadəyə səbəb olur. Belə ki, yaxşı düşünülmüş büdcəsi olan ailələrdə gözlənilməz xərclər yarandıqda onun iqtisadi vəziyyəti ağırlaşmır. Belə ailələrdə böyüyən uşaqlar da qazanılan pulun dəyərini daha yaxşı bilir və onlar gələcəkdə ailənin böyükyaşlı fərdi olduqda bu baxımdan məsuliyyətli olur, ailə büdcəsinə, onun planlaşdırılmasına ciddi yanaşırlar. Araşdırmalar göstərir ki, büdcənin ailə üzvlərinin hər birinin iştirakı ilə tərtib olunduğu belə ailələrdə ailədaxili münasibətlər də daha səmimi və mehriban olur, maddi sıxıntılar çox az müşahidə edilir.

***– Bu gün ailə büdcəsinin xərcləri əsasən nəyə yönəldilir?***

– Bu, bir həqiqətdir ki, insan tələbatları geniş, gəlirlər isə məhduddur. Bu baxımdan hər bir ailə başçısı öz gəlirləri ilə hansı ehtiyacların necə ödəyəcəyini yaxşı bilməlidir. Başqa sözlə, pul qazanmaq çətindirsə, onu xərcləmək daha çətindir. Bu mənada, pulu qazanmaqla bərabər, onu xərcləmək də xüsusi bacarıq tələb edir. Bu, bizim söhbətin mövzusu olan maliyyə savadlılığının əsas predmetidir. Belə ki, bəzi insanların gəlir səviyyəsi, təqribən, eyni olsa da, onların həyat səviyyələri arasında böyük fərqlər vardır. Bunun da səbəbi onların ailə büdcəsi xərclərinin müxtəlif cür xərclənməsidir. Buna görə də gəlirlərimizi yaşayış standartlarımıza uyğunlaşdırmaq lazımdır.

Bu baxımdan bir sıra məqamlar diqqəti daha çox cəlb edir. Belə ki, statistik məlumatlara əsasən, son dövrdə cəmiyyətimizdə əhali gəlirlərinin 75 faizi son istehlaka, 9,5 faizi vergilərə və digər ödənişlərə, 15,5 faizi isə kreditlər üzrə faizlərin ödənilməsinə yönəldilir. Göründüyü kimi, əhali gəlirlərinin böyük bir qismi məhz götürülmüş kreditlər üçün ödənişlərə sərf olunur. Əgər nəzərə alsaq ki, hazırda verilən ümumi kreditlərin 41 faizi istehlak kreditlərinin payına düşür, onda bu kreditlər üçün ödənilən aylıq ödənişlər də büdcəmizin geri dönməyən xərcləri olacaqdır. Digər tərəfdən, alınan bahalı elektron avadanlıqlar, avtomobillər ailə büdcəmizdə uzunmüddətli xərclər yaratmaqla bərabər, eyni zamanda idxalı stimullaşdırır və valyuta şəklində xarici ölkələrin iqtisadiyyatına yönəlir.

***– Elçin müəllim, bəs onda vətəndaşlar istehlak kreditləri üçün banklara müraciət edərkən nəyə diqqət etməlidirlər?***

– Təəssüflə qeyd etməliyəm ki, bəzi vətəndaşlar kredit öhdəliyinə kifayət qədər məsuliyyətsiz yanaşır və düşünmədən kredit götürmək üçün banklara müraciət edirlər. Bu kredit onlar üçün nə dərəcədə vacibdir və ya hal-hazırkı xərcləri ödəyə biləcək gəlirləri yoxdursa, götürüləcək kreditin necə qaytarılacağı sualının cavabı bəzən heç yada düşmür. Belə düşünülməmiş addımlar ailələrin büdcəsində kəskin şəkildə özünü büruzə verir. Halbuki kredit götürərkən ailənin bütün digər xərcləri də nəzərə alınmalıdır. Ümumi statistikaya əsasən deyə bilərəm ki, istənilən ailənin kredit ödənişi onun gəlirlərinin 20-25 faizini aşmamalıdır. Ailənin digər xərclərini də nəzərə alsaq, aylıq gəlirin bu məbləğdən artıq ödənişi olan kredit almaq maddi çətinliklər yarada bilər.

***– Bu gün ailə büdcəsinin planlaşdırılmasına yanaşma necədir?***

– Bu barədə cəmiyyətimizin maarifləndirilməsinə ehtiyac duyulur. Əlbəttə, bu gün ailə büdcəsinin idarə olunması anlayışı bir çox insanlar üçün yeni bir məfhumdur. Araşdırmalara görə əhalinin, təqribən, 20 faizi məhz bu cür planlaşdırmalara üstünlük verir. Onu da qeyd edim ki, bu məsələ hələ gənc yaşdakı insanlara aşılanmalı, məktəbli uşaqlara bu sahədə diqqətli olmaq öyrədilməli, ailə gəlirlərinin necə və hansı mənbələr hesabına formalaşdığı, xərclərin necə yaranması izah olunmalıdır. Bu da gələcəkdə onların ailə büdcəsi, onun düzgün idarə olunması haqqında biliklərinin artmasına kömək edəcəkdir.

*Müsahibə üçün sağ olun!*

**Əli CABBAROV**

## Cüdoçumuz beynəlxalq turnirdə bürünc medal qazanıb

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının son illər beynəlxalq arenalarda qazandığı uğurlara daha biri əlavə olunub. Ötən həftə Ukraynanın Odessa şəhərində yeniyetmələr arasında keçirilən cüdo üzrə “XII Avropa” beynəlxalq turniri başa çatıb. Bir çox ölkənin iştirak etdiyi turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi Abbas Məmmədov da çıxış edib. Abbas Məmmədov turnirin ilk mərhələsində Ukrayna və Gürcüstan idmançılarını məğlubiyyətə uğradıb. Cüdoçumuz beynəlxalq turniri üçüncü pillədə başa vurmaqla bürünc medal qazanıb.

Abbas Məmmədova təşkilatçılar tərəfindən diplom və medal təqdim olunub.

## Yüngül atletika üzrə yarış

Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublika Stadionunda paralimpiyaçılar arasında yüngül atletika (100-200 metr məsafəyə qaçış) üzrə yarış keçirilib.

Tədbirdə Paralimpiya Federasiyasının, Gənclər və İdman Nazirliyinin nümayəndələri çıxış edərək bildiriblər ki, muxtar respublikada məhdud fiziki imkanlı gənclərin idman həyatına inteqrasiyası daim diqqət mərkəzindədir. Bu qəbildən olan tədbirlərin keçirilməsində də əsas məqsəd məhdud fiziki imkanlı şəxslərin idmana olan maraqlarını artırmaqla onlarda sağlam həyat tərzini formalaşdırmaq, həmçinin istedadlı idmançıları aşkara çıxarmaq, habelə onların asudə vaxtlarının səmərəli keçirilməsinə nail olmaqdır.

Yarışda 20 paralimpiyaçı bacarığını nümayiş etdirib. 100 metr məsafədə bütün rəqiblərini qabaqlayan Təvəkkül Tağıyev qalib adını qazanıb. Digər iki pillədə isə Fazil Ağayev və Coşqun Hüseynov qərarlaşıb. 200 metr məsafəni isə hamıdan tez Zamin Zahidli qət edib. Firəddin Əliyev ikinci, Vüsal Nağıyev isə üçüncü olublar.

Sonda ilk üç yeri tutan idmançılara Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının mükafatları, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim edilib.

## Qızlar arasında basketbol üzrə yoldaşlıq görüşü

18 oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə Naxçıvanda ilk dəfə qızlar arasında basketbol üzrə yoldaşlıq görüşü keçirilib.

Yoldaşlıq görüşündən əvvəl çıxış edən federasiyanın sədr müavini Ənvər Məmmədov Azərbaycanın müstəqillik yolunda qazandığı uğurlar barədə idmançılara məlumat verib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi görüşdə Culfa və Ordubad basketbolçuları üz-üzə gəliblər.

“Culfa” komandası ordubadlı həmkarlarını 27:17 hesabı ilə məğlub edib.

**Ceyhun MƏMMƏDOV**


## Elan

*Hörmətli abunəçilər!* Siz muxtar respublikanın rəsmi mətbuat orqanı olan “Şərq qapısı” qəzetinə, Azərbaycan Respublikasının və MDB ölkələrinin qəzet və jurnallarına rabitə idarələrinin poçt şöbələrində abunə ola bilərsiniz.

Abunə yazılışında rabitə idarələrinin xidmətlərindən istifadə etmək sizə vaxtlı-vaxtında dövri mətbuatı əldə etmək imkanı verəcəkdir.

“Şərq qapısı” qəzetinə, Azərbaycan Respublikasının mətbuat orqanlarına abunə yazılışı 25 dekabr 2015-ci il və MDB ölkələrinin qəzet və jurnallarına isə 30 noyabr 2015-ci il tarixədək aparılacaqdır.

Əlaqə telefonları və bank rekvizitləri aşağıdakı kimidir:

***Naxçıvan şəhəri, telefon: 545-16-69***
***Kapital Bank***
***Hesab №***
***AZ80AIIB38080019443103350500***
***VÖEN 0200708681***

***Şərur rayonu, telefon: 542-25-54***
***Kapital Bank Şərur filialı***
***Hesab №***
***AZ76AİİB38080019443361236133***
***VÖEN 0200708681***

***Babək rayonu, telefon: 541-34-65***
***Kapital Bank Babək filialı***
***Hesab №***
***AZ69AİİB38080019443061646130***
***VÖEN 0200708681***

***Ordubad rayonu, telefon: 547-11-67***
***Kapital Bank Ordubad filialı***
***Hesab №***
***AZ33AİİB38080019443161445131***
***VÖEN 0200708681***

***Culfa rayonu, telefon: 546-07-99***
***Kapital Bank Culfa filialı***
***Hesab №***
***AZ54AIIB33060019443261329132***
***VÖEN 0200708681***

***Kəngərli rayonu, telefon: 548-08-97***
***Kapital Bank Kəngərli filialı***
***Hesab №***
***AZ61AİİB38080019448961302189***
***VÖEN 0200708681***

***Şahbuz rayonu, telefon: 543-03-92***
***Kapital Bank Şahbuz filialı***
***Hesab №***
***AZ69AİİB38080019443461357134***
***VÖEN 0200708681***

***Sədərək rayonu, telefon: 549-10-18***
***Kapital Bank Sədərək filialı***
***Hesab №***
***AZ54AİİB38080019443561124135***
***VÖEN 0200708681***

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi***


### İtmişdir

Quliyev Cəfər Müslüm oğlunun adına olan evin Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Qəribov Asəf Heydər oğlunun adına olan evin Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Sara Əzimova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 770**